Nailə ƏSKƏR
AMEA Folklor İnstitutu

# AŞIQ NƏSİBİN HƏYATI

Aşıq Nəsib çoxəsrlik tarixə malik olan zəngin Ağbaba-Çıldır aşıq mühitinin tanınmış nümayəndələrindən biridir. Bu mühitdə müxtəlif dövrlərdə Pir Sultan Abdal (XVI əsr), Bağdad xanım (XVI əsr), Aşıq Ömər (XVII əsr), Xəstə Həsən (təqr. 1760-1840), Aşıq Şenlik (1953-1912), Aşıq Məhərrəm (XIX əsr), Aşıq Zülali (1873-1959), Aşıq Gülüstan (1920-1970), Aşıq İsgəndər Ağbabalı (1925-1995) kimi məşhur saz-söz ustaları yaşayıb-yaratmışdır (1). Təəssüf ki, bu çox zəngin mühitin sənət tarixi, özünəməxsus xüsusiyyətləri Azərbaycanda çox az öyrənilmiş (2; 3; 4), Türkiyədə isə kifayət qədər tədqiq edilməmişdir. Düzdür, Türkiyədə çıxan bəzi ensiklopedik nəşrlərdə (5; 6) və araşdırmalarda (7; 8; 9) Ağbaba-Çıldır mühitinin Çıldır qismində yaşamış sənətkarlar barədə məlumatlar verilmişdir. Bunun iki başlıca səbəbi vardır. Birincisi, Ağbaba-Çıldır aşıq mühiti öz coğrafi mövqeyi etibarilə Azərbaycandan xeyli uzaqdır. İkincisi, bu bölgə tam 40 il, yəni 1878-1918-ci illərdə Türkiyənin deyil, çar Rusiyasının tərkibində olmuş, 1918-ci ildən isə onun Ağbaba qismi əvvəlcə Sovet İttifaqının, 1991-ci ildən sonra Ermənistanın ərazisinə çevrilmişdir. SSRİ ilə Türkiyənin ayrı-ayrı siyasi, ideoloji və hərbi bloklara mənsub olması, sosial-mədəni münasibətlərindəki gərginlik bölgənin diqqətdən kənarda qalması ilə nəticələnmişdir.

Aşıq Nəsibin həyatına və yaradıcılığına gəlincə, onun sovet hakimiyyətinə qarşı mənfi, hətta düşmən mövqeyi bu sənətkarın əsərlərinin nəinki yazılı, hətta şifahi təbliğinə, nəşrinə icazə verilməməsinə gətirib çıxarmışdır. Ona görə də bəzi istisnalar dışında Aşıq Nəsib haqqında çox az yazılmış, onun zəngin irsi toplanmamış, yaradıcılığı ayrıca tədqiqat mövzusuna çevrilməmiş, araşdırılmamışdır.

Aşıq Nəsib haqqında ilk elmi məlumat 1988-ci ildə Qəşəm Vəliyevin «Aşıq Şenliyin həyatı, mühiti və poetik yaradıcılığı» adlı dissertasiyasında (10) verilmişdir. Bundan təqribən 10 il sonra folklorşünas Sürəyya Ağbabalının «Ağbaba folkloru» (11) kitabında Aşıq Nəsibin həyatından bəhs edilmiş, bir neçə şeiri təqdim olunmuşdur. AMEA Folklor İnstitutunun əməkdaşı Tacir Səmiminin 2000-ci ildə çapdan çıxan «Duman dağı bürüdü» (12) kitabında da aşığın bir neçə şeiri verilmişdir. Filologiya elmləri namizədi Aslan Bayramovun tərtib etdiyi «Oğuz elindən, ozan dilindən» (13, s. 84-86) kitabında Aşıq Nəsibin həm həyatı, həm də yaradıcılığı haqqında daha geniş söz açılmışdır.

2004-cü ildə Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun Elmi Şurasının qərarı ilə Aşıq Nəsibin həmin dövrdə əldə olan əsərləri «Aşıq Nəsib» kitabında (14) nəşr edilmişdir. Professor H.İsmayılov həmin kitaba

«Kor taleyə, qara bəxtə nə deyim?» adlı iri bir müqəddimə yazmış, aşığın yaradıcılığını geniş şəkildə təhlil etmişdir.

Aşıq Nəsib barədə yazan müəlliflərin böyük əksəriyyəti onun 1874-cü ildə Qərbi Azərbaycanın Ağbaba mahalının (Amasiya rayonunun) Güllübulaq kəndində anadan olduğunu qeyd etmişlər. Bu, onun təxminən 70 il ömür sürdüyü barədə yayılmış fikrin nəticəsi olaraq ortaya çıxmışdır. Lakin folklorşünas-alim, filologiya elmləri namizədi Avtandil Ağbabalının yazdığına görə, onun əsl təvəllüd tarixi 1870-ci ildir. Müəllifin yazdığına görə, aşıq 1944-cü ildə öz doğma kəndi Güllübulaqda vəfat etmiş, «təzə qəbristanlıq» adlanan yerdə dəfn olunmuş və başdaşında «1870-1944» rəqəmləri həkk edilmişdir (1, s. 99).

Aşıq Nəsib Bayram kişi adlı orta hallı bir kəndlinin ailəsində dünyaya gəlmiş, özündən başqa Yusif və Rza adlı iki qardaşı olmuşdur. Aşıq uşaqlıq illərində çiçək xəstəliyi keçirmiş, nəticədə gözlərinin işığını itirmişdir. Bu dərd ömrü boyu ona əzab vermiş, yaradıcılığında da özünü göstərmiş, xalq arasında «Kor Nəsib» adı ilə çağrılmışdır.

Aşıq Nəsib korluğuna görə heç bir təhsil ala bilməmiş, ancaq fenomenal yaddaşı, iti zəkası və fəhmi sayəsində məlumatlı adam kimi yetişmişdir. Gözləri görmədiyi üçün hərəkət qabiliyyəti azalan gənc Nəsib özünə məşğuliyyət tapmaq məqsədilə meylini saza salmış, qısa müddət ərzində yaxşı çalıb-oxumağı öyrənmişdir. Qonşu qızı Bahara vurulan Nəsib yuxuda bir dərvişdən alma alaraq yemiş və ətrafda haqq aşığı kimi tanınmışdır. Ancaq bu mürəkkəb sənətin sirlərini öyrənmək üçün təcrübəli bir aşığın yanında şagird olmaq istəmişdir. Çox təkid etdiyi üçün atası onu tanınmış söz-saz ustası Göləli İbrahimin yanına şagirdliyə vermişdir. Ancaq ustadı tezliklə vəfat etmişdir. Bundan dərin sarsıntı duyan Nəsib Güllübulaqda keçirilən bir toyda Aşıq Şenliklə tanış olmuş, onunla deyişmiş, axırda isə «Sizə şagird olmaq istəyirəm» deyə xahiş etmiş, Aşıq Şenlik buna məmnuniyyətlə razılıq vermişdir.

Aşıq Şenliyin yanında saz-söz sənətinin bütün sirlərini dərindən mənimsəyən Aşıq Nəsib özü də tezliklə müstəqil məclislər keçirməyə başlamışdır. Onun Ağbabada, Gümrüdə, Çıldırda, Qarsda, Axıskada, Axılkələkdə, İrəvanda, Borçalıda keçirdiyi məclislər dillərdə dastan olmuş, bir sənətkar kimi şöhrətini hər yana yaymışdır.

Aşıq Nəsibin yaradıcılığı da getdikcə püxtələşmiş, o, çox sayda qoşma, gəraylı, divani, müxəmməs, təcnis yaratmış, dastanlar qoşmuş, Azərbaycan aşıq poeziyası tarixinə ustad sənətkar kimi daxil olmuşdur.

Aşıq Nəsibin yaradıcılığını şərti olaraq iki mərhələyə bölmək olar. Birinci mərhələ onun gənclik dövrünə, Bahara bəslədiyi məhəbbət zamanına təsadüf edir. Yaradıcılığının ikinci mərhələsində o, yetkin sənətkar kimi qarşımıza çıxır. Aşığın yaradıcılığında həyatın bütün sahələri öz əksini tapır: müsəlmanlara qarşı rus-erməni əməkdaşlığı, ağır güzəran, milli zülm, türk-sovet

sərhədinin bağlanması, ikinci dünya müharibəsinin gətirdiyi maddi və mənəvi sıxıntılar, nəhayət, özünün rejim əleyhdarı kimi ev həbsinə alınması, bayıra çıxmasına icazə verilməməsi və s.

**ƏDƏBİYYAT:**


1. Avtandil Ağbaba. Ağbaba-Çıldır aşıq mühitində Aşıq Nəsibin yeri. «Ortaq türk keçmişindən ortaq türk gələcəyinə» V Uluslararası Folklor Konfransı. Bakı, 2007, s. 99.
2. Azərbaycan aşıq şerindən seçmələr. Bakı, Şərq-Qərb, 2005, I cild, 376 s.
3. Anadolu aşıqları. Toplayıb tərtib edəni və işləyəni: K.Quliyeva. Bakı, Azərnəşr, 1993.
4. Maarifə Hacıyeva. Türk aşıqları. Bakı, Elm, 2004, 207 s.
5. Ansiklopedik Divan Şiiri Sözlüğü. Hazırlayan: Dr. İskender Pala. I-II ciltler, Ankara, 1990.
6. Başlangıçtan Günümüze Kadar Büyük Türk Klassikleri (Tarih – Antoloji - Ansiklopedi). 9. Cilt. Ötüken-Söğüt, İstanbul, 1989.
7. Çıldırlı Aşık Şenlik. Hayatı, Şiirleri ve Hikayeleri. (İnceleme-Metin-Sözlük). Hazırlayan: Ensar Aslan. Erzurum, 1973, 455 s.
8. Günay Unay. Tükiyede Aşık Tarzı Şiir Geleneği ve Rüya Motivi. Ankara, 1993.
9. Arpaçay Köylerinden Derlemeler. Türk Dil Kurumu Yayınları, Ankara, 1976.
10. Qəşəm Vəliyev. Aşıq Şenliyin həyatı, mühiti və poetik yaradıcılığı. Namizədlik dissertasiyası, Bakı, 1988.
11. Azərbaycan folkloru antologiyası. Ağbaba folkloru. Toplayıb tərtib edəni: Sürəyya Ağbabalı. Bakı, Azərnəşr, 1997.
12. Duman dağı bürüdü. Tərtib edəni: Tacir Səmimi. Bakı, 2000.
13. Oğuz elindən, ozan dilindən. Toplayan: Aslan Bayramov. Bakı, Elm , 2000, 250 s.
14. Aşıq Nəsib. Toplayıb tərtib edənlər: H.İsmayılov, T.Qurbanov. Bakı, Səda, 2004.


**РЕЗЮМЕ**

**Жизнь Ашуга Насиба**


В статье рассматривается жизнь и творчество выдающегося ашуга региона Агбаба-Чылдыр–Ашуга Насиба который родился в 1870 году в селении Гюллибулаг уезда Агбаба и скончался в 1944 году там же, прожив 74 года. Он был продолжателем традиций таких известных художников слова, как Пир Султан Абдала (XVI в.), Багдад ханум (XVI в.), Ашуга Омара (XVII в.), Хаста Гасана (пр. 1760-1840), Ашуга Шенлика (1953-1912), Ашуга Мухаррама (XIX в.), и других ашугов этого региона.


**RESUME**

***Life of Ashug Nassib's***


The article says about life of Ashug Nassib. An author of the article comes to conclusion that Ashug Nassib was born in 1870 in Gullubulag settlement in Aghbaba Region and died in 1944, in 74 years old. Ashug Nassib is successor of traditions of the Aghbaba-Chyldyr Regions ashugs – Pir Sultan Abdal, Bagdad Chanum, Ashug Omar, Chasta Hassan, Ashug Shenlik etc.